Həqiqətən hər bir əməldə yumşaq davranmaq əməli bəzəyər, yoxluğu isə həmin əməli çirkin edər

Peyğəmbərimizin (Allahın salavatı və salamı onun üzərinə olsun) zövcəsi Aişədən (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: Həqiqətən hər bir əməldə yumşaq davranmaq əməli bəzəyər, yoxluğu isə həmin əməli çirkin edər.

[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, sözdə və əməldə yumşaqlıq, mülayimlik, ehtiyatlı davranma hər bir işin gözəlliyini, keyfiyyətini və mükəmməlliyini artırır və ehtiyacı olana daha rahat anlatmağa yardım edir. Həlim olmamaq işləri qüsurlu edər, qəbahətli edər və ehtiyac sahibinin istədiyi şeyə nail olmasına mane olar və nail olsa belə çətinliklə əldə edər.

https://sunnah.global/hadeeth/az/show/5796

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee